

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 160 (23.572)

23 sentyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar.

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir. Prezident İlham Əliyevin tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülür. Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə indi gətirilib.

Yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

Avtomobillər bir sıra özünəməxsus özəlliklərə malikdir. Belə ki, “Mercedes Sprinter 416” bazasında təcili tibbi yardım avtomobilləri (reanimobil) avadanlıq və burada göstərilən tibbi yardımın genişliyi baxımından digər ambulanslardan fərqlənir. “Ford Transit” bazasında təcili tibbi yardım avtomobilləri isə ana xərək və döşək, sovurma avadanlığı, oksigen balonu və sair ilə təchiz edilib.




## 2020-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar-avqust aylarında 1 milyard 840 milyon 976 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz artaraq 4000 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 758 milyon 415 min 700 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 661 milyon 448 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 634 milyon 681 min 600 manatı və ya 96 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-avqust aylarında 323 milyon 769 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 14779 ton, süd istehsalı 69098 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,8 faiz, süd istehsalı isə 1,4 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 37 milyon 130 min 200 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 4,5 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 29 milyon 368 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 119 milyon 399 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 dəfə çoxdur. Verilmiş kreditlərin 13 milyon 879 min 100 manatı və ya xud 11,6 faizi qısamüddətli, 105 milyon 520 min 300 manatı və ya xud 88,4 faizi isə uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 sentyabr 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 89706-ya çatmışdır ki, bunun da 78364-ü və ya 87,4 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar-avqust aylarında açılmış 25612 bank hesabının 25601-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2020-ci il tarixə 1346-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-avqust aylarında 328 milyon 123 min 400 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 288 milyon 51 min ABŞ dolları təşkil etmiş, 247 milyon 978 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 528 manata çatdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 16,1 faiz çoxdur.

* * *

1 avqust 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 2771 nəfər artaraq 460 min 743 nəfər olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

*“Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı”na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib.*

## Komandir hazırlığına diqqət artırılır

Komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin nəzəri biliklərinin möhkəmləndirilməsinə, bölmələrin idarə edilməsində praktik vərdişlərin təkmilləşdirilməsinə və keçirilən tədbirlərin təşkilinə yaradıcılıqla yanaşılmasında özünəinam hissinin aşılanmasına yönəldilib.

Məşğələnin 3-cü günündə hərbi hissələrin komandirlərinin və digər vəzifəli şəxslərinin cəlb edilməsi ilə



“Müdafiənin təşkilində mövcud problemlər və onların aradan qaldırılması” mövzusunda konfrans keçirilib.

**Nəriman NƏCƏFOV**

## Test imtahanları keçirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin işə qəbulu üçün 30 iyun 2020-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanları 31 avqust-16 sentyabr tarixlərdə keçirilmişdir.***

Müsabiqəyə 268 vakant vəzifə çıxarılmışdı. 186 vəzifənin tutulması üçün 746 namizəd müraciət etmişdi ki, bu da son illərdə ən yüksək göstəricidir. Belə ki, 2018-ci ilin eyni dövründə 527, 2019-cu ildə isə 599 müraciət qeydə alınmışdı. Test imtahanlarında 714 namizəd iştirak edib, onlardan 414-ü keçid balını toplayıb.

Vakant vəzifələr Şərur rayonu (63 yer), Ordubad rayonu (60 yer) və Babək rayonu (40 yer) üzrə daha çox olub. Ən çox İbtidai sinif müəllimliyi (148 müraciət), İngilis dili (145 müraciət), Tarix (69 müraciət) və Azərbaycan dili (55 müraciət) ixtisasları üzrə qeydiyyat aparılıb.

Müsabiqədə hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris edilən ixtisaslar üzrə fənn proqramlarına aid 40, tədris metodikası və təlim strategiyalarına aid 20 test tapşırığı təqdim olunub. Namizədlərə test tapşırıqlarının yerinə yetirilməsi üçün 90 dəqiqə vaxt verilib və hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar düzgün cavablara təsir etmir.

Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 50 faizini (30 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 75 faizini (45 bal), habelə musiqi, texnologiya, təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə işə qəbul, o cümlədən rus bölməsində işləmək üçün test tapşırıqlarının 40 faizini (24 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir.

* * *



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət vergi orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanlarına 22 sentyabr tarixdən start verilib.*

Test imtahanlarının keçirilməsində əsas məqsəd vergi orqanlarında kadr potensialının gücləndirilməsi və ondan səmərəli istifadə edilməsi, eləcə də istedadlı gənclərin vergi xidmətinə işə cəlb edilməsindən ibarətdir.

Müsabiqəyə çıxarılan 20 vakant vəzifənin tutulması üçün 184 namizəd sənəd təqdim edib. İmtahanda qanunvericilik və ixtisas üzrə 90, məntiqi təfəkkürün yoxlanılması üzrə 10 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilir, sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt verilir. Yetmiş və daha artıq test tapşırığına düzgün cavab verən namizədlər növbəti müsahibə mərhələsinə buraxılacaqlar.

Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticəyə dair arayış təqdim edilir. İmtahanda Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin əməkdaşları müşahidəçi kimi iştirak edirlər.

Test imtahanında namizədlər tibbi maskadan istifadə edib, sosial məsafə qorunub və digər sanitar-gigiyenik tələblərə əməl olunub.

Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir.

Test imtahanları 25 sentyabr 2020-ci il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

# İqtisadiyyat



## Ailə təsərrüfatlarımız

# Əsl torpaq adamı...

***Yaxın illərin söhbətidir. Muxtar respublikanın aidiyyəti nazirliklərinin nümayəndələrinin diyarımızın böyük kənd yaşayış məntəqələrində torpaq mülkiyyətçiləri ilə keçirilən görüşlərində iştirak edirdim. Bu tədbirlərdə torpaqlardan düzgün istifadə məsələsi müzakirə olunur, sahələrdə əyani şəkildə mütəxəssis məsləhətləri verilirdi.***

Növbəti görüşlərin birində sadə bir torpaq adamının çıxışı, sözün həqiqi mənasında, mənə çox maraqlı təsir bağışladı. “Torpağın dilini bilmək” ifadəsinə məhz onda inandım.

Bu yazının qəhrəmanı da elə torpağın dilini öz dilimiz kimi bilən Arif Cəfərovdur. Babək rayonunun Yarımca kənd sakini Arif qardaşımızla elə o tədbirdə tanış olmuşam. Üstündən illər keçir. Ara-sıra görüşür, hal-əhval tutur, söhbətləşirik. Bir dəfə qəzetimizin redaksiyasında keçirilən dəyirmi masada iştirak edib, yenə də dəyərli söhbətinə heyranlıqla qulaq asmışam – əsl torpaq adamı, əsl zəhmətkeş bir insanın verdiyi hər bir məsləhət yaddaşıma həkk olunub.

Cari ilin artıq başa çatmış taxıl tədarükünün qızğın bir dövründə telefon əlaqəsi saxlayaraq Arif Cəfərovu redaksiyaya dəvət etdim. Çox səmimi bir şəkildə:

– Eşidirsənmi kombaynların səsini? Taxıl biçdirirəm.

Bir neçə gün sonra özüm getməli oldum. Və yenə də məni maraqlı söhbətinə “qonaq etdi”.

* * *

– Yarımca Babək rayonunun məhsuldar torpaq sahələri, bu qiymətli sərvətə bağlı insanları olan yaşayış məntəqələrindən biridir. Tarixən burada kənd təsərrüfatının müxtəlif sahələrində zəngin təcrübə qazanılıb. Torpaq adamları son illərdə onlara dövlətimiz tərəfindən yaradılmış şəraitdən səmərəli istifadə edir, məhsul bolluğu yaratmağa, gün-güzəranlarını yaxşılaşdırmağa çalışırlar. Bu sözləri 2-ci dərəcəli “Əmək” ordenli Arif Cəfərov deyir, əli ilə ucu-bucağı görünməyən əkin sahələrini göstərərək söhbətinə davam edir:

– Kənddə bir qarış torpaq belə, əkilməmiş qalmır. Hər bir yarımcalı bu qiymətli sərvətin səxavətinə bələd olduğundan onun qədrini bilir. Taxıl əkininə isə Yarımcada xüsusi önəm verilir. Mən də əsasən taxılçılıqla məşğulam. Bu il 60 hektar sahədə taxıl əkmişdim. Builki məhsulum da ailə təsərrüfatıma xeyli gəlir gətirdi.

...El ağsaqqalı, kənd bələdiyyəsinin sədri, ailə təsərrüfatı başçısı. Ömrünün 72-ci ilini yaşayan həmsöhbətimə heç bu yaşı vermək olmaz. Özünə deyəndə üzünə təbəssüm qonur, yenidən söhbətə davam edir:

– Orta təhsilimi alıb, kənddəki kolxozda fəaliyyətə başlamışam. Sonra sürücülük məktəbini bitirərək sürücülük etmişəm. Sovet hökuməti dağılanadək ictimai təsərrüfatlardakı qayda-qanunları o dövrü yaşayanlar yaxşı xatırlayarlar. Elə bilirdik ki, belə də olmalıdır: yarım və ya bir hektar üzüm bağı, bir o qədər tərəvəz sahəsi. Səhər tezdən işə get, günortaya qədər çalış, axşamüstü yenə... Heyvandarlıq fermalarında çalışanların işi lap çətin idi. Düzdür, yaxşı işə qiymət verənlər az da olsa, var idi. Ancaq, ümumilikdə, insan çalışdığının əvəzini yetərincə ala bilmirdi.



Bir məsələni də xatırladım. Eşidəndə ki, ictimai təsərrüfatlar ləğv olunur, həmin təsərrüfatlara məxsus texnikalar, mal-heyvan satışa çıxarılacaq, torpaqlar o ünvanlarda yaşayan insanlara paylanılacaq – heç kimin inanmağı gəlmirdi. Onu da deyim ki, ölkəmizdə islahatlara muxtar respublikadan başlanıldı. Kənd adamı öz torpağının əsl sahibinə çevrildi. Düzdür, ilk dövrlərdə müəyyən çətinliklərlə üzləşdik. Bu da təbii idi. Çünki, ilk növbədə, torpaqda işlətmək üçün texnika çatışmırdı, olan-qalan texnikalar da istismar müddətini başa vurmuşdu, su təsərrüfatı iflic vəziyyətdə idi. Bunlarsız isə torpağa necə yaxın düşə bilərdin? Ancaq yavaş-yavaş hər şey öz yoluna qoyuldu. Tez-tez muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrinə yolum düşür. Bu gün Naxçıvanın ən ucqar kəndinin torpaq sahələrində yeni texnikalardan istifadə olunur, su ilə təminatdakı problemlər aradan qaldırılıb, neçə-neçə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. O təsərrüfatlardan keyfiyyətli toxum almaq bir içim su kimidir. Son illərdə yaradılan ailə təsərrüfatları, onların hərtərəfli fəaliyyəti üçün göstərilən qayğının da üstə gəlsək, heç bir kənd adamı özünün gün-güzəranından narazılıq edə bilməz. Bir də ki artıq ələbaxımlılıq dövrü deyil indi. Yaxşı yaşamaq istəyirsənsə, torpağa üz tut. O səni heç vaxt naümid qoymayacaq, çəkdiyin zəhmətin əvəzini beş qat ödəyəcək. Bundan artıq nə istəyirsən?

Arif Cəfərovla söhbətim məni də o illərə aparır. Həmsöhbətimin sözlərindəki həqiqəti ürəyimdə təsdiq edirəm. Onun bu günümüzlə bağlı dediklərini isə hamımız görürük. Su ilə işləyən un dəyirmanlarının təmiri, yeni dəyirmanların istifadəyə verilməsi, çörəkbişirmə sexlərinin fəaliyyətə başlaması, ümumiyyətlə, müxtəlif istehsal sahələrinin yaradılması muxtar respublikanın yeni həyata qədəm qoymasını göstərirdi. Yaradılan müəssisələr sovet dönəmindəkindən fərqli olaraq ancaq rayon mərkəzində deyil, kəndləri də əhatə etdiyindən bəzi çətinliklər də aradan qalxdı. Kim inanardı ki, ən ucqar kənddə belə, beş-altı nəfərin işlə təmin olunacağı istehsal sahəsi yaradılacaq? Ancaq məqsədyönlü siyasət, qarşıya qoyulan vəzifənin uğurla yerinə yetirilməsində əzmkarlıq özünü göstərdi.

Arif Cəfərov deyir ki, onun ailə təsərrüfatında kombayndan başqa taxılçılıqda işlədilən bütün texnikalar var. Onları zəhmət çəkərək qazandığı vəsaitlə alıb. Son illərdə istifadə etdiyi toxumu da öz sahəsindən əldə edir. Taxılçılıqla məşğul olanlara da satır. Bütün bunlar dövlətimizin kənd adamına göstərdiyi qayğının və torpağın səxavətinin ifadəsidir. Əsl torpaq adamı olan Arif Cəfərov bu qiymətli nemətə bağlananları ən halal insanlar sayır: – Bu gün Naxçıvanda beləlləri saysız-hesabsızdır. Məhz onların əməyinin nəticəsidir ki, dükan-bazarlarımızda, süfrələrimizdə bolluqdur. Getdikcə də gəlirimiz, qazancımız artır. Biz həm də ona sevinirik ki, torpaqlarımız münbitdir, hər bir məhsul yetişdirməyə qabildir. O öz həyətyanı torpaq sahəsində böyük meyvə bağı salıb. Bağda yerli meyvə sortları yetişdirir. Özü demişkən, toyuq-cücəsinin sayını bilmir. Bütün bunlar sadə bir torpaq adamının zəhməti ilə başa gəlib.

Arif Cəfərov söhbət etdikcə yadıma mərhum şairimiz Əliyar Yusiflinin misraları düşür:

*Yerə hökmrandır, göyə hakimdir,*
*Canlını, cansızı yedirən torpaq.*
*Heçliyin Tanrısı bilmirəm kimdir,*
*Varlığın Allahı bir odur ancaq.*

***P.S.*** Yazını baş redaktora təqdim etdikdən bir qədər sonra telefonuma zəng gəldi. Açdım. Arif Cəfərov idi. Hal-əhval tutduq. Gələn təsərrüfat ilinin məhsulu üçün taxıl əkininə başladığını bildirdi. Öyrəndim ki, bir tərəfdə şum qaldırılır, bir tərəfdə səpin aparılır, əkilmiş sahələr suvarılır. Hiss etdim ki, bu işləri optimal müddətdə başa çatdırmağa çalışır... Arzu edirik ki, gələn ilin uğurları daha böyük olsun.

**✍ Muxtar MƏMMƏDOV**

## İqtisadi inkişafın bəhrələri

Bu gün qədim diyarımız Naxçıvan abadlaşıb, gözəlləşib, nümunəvi və qibtə ediləcək məkana çevrilib. İqtisadiyyatı elmi əsaslarla inkişaf etdirilən Naxçıvanda əldə olunan nailiyyətlər bir daha sübut edir ki, düzgün seçilən yol həmişə uğurlarla nəticələnir.

Bu yolda qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetirilir, müvəffəqiyyətlərə nail olunur. Bu sırada iqtisadi siyasətin əsasını təşkil edən sahibkarlıq subyektlərinin normal fəaliyyəti xüsusi rol oynayır. Qeyd edək ki, muxtar respublikada hər il yeni-yeni istehsal müəssisələrinin açılması daimi xarakter alıb. Bu da öz bəhrələrini verib. Statistik rəqəmlər də dediklərimizi sübut edir. Belə ki, 2009-cu il ərzində muxtar respublika üzrə 1341 fiziki şəxs sahibkarlıq uçotuna alınmışdırsa, 2019-cu ildə bu rəqəm 3594 olub ki, bunun 73,4 faizi muxtar respublika rayonlarının payına düşür. Həyata keçirilən Dövlət proqramlarının nəticəsidir ki, 2009-cu ildə muxtar respublikada 239 adda sənaye məhsulu istehsal edilirdisə, artıq bu gün 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Həmçinin ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. İllər üzrə müqayisə etsək, görərik ki, 2009-cu ildə sənaye üzrə 212 milyon 469 min 100 manat dəyərində məhsul istehsal edilmişdirsə, artıq bu rəqəm 2019-cu ildə 1 milyard 14 milyon 971 min manata çatdırılıb. Bu, qeyd olunan dövrlə müqayisədə 5 dəfəyə yaxın artım deməkdir. İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayı 2009-cu ildə 78 min 946 nəfər təşkil edirdisə, bu rəqəm 2019-cu ildə 98 min 142 nəfərə çatdırılıb. Digər tərəfdən 2009-cu ildə iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı 272 manat təşkil edirdisə, bu gün 527 manat səviyyəsində müəyyənləşib. Təkcə 2019-cu ildə 3250 iş yeri açılıb ki, bu da əhalinin işlə təmin olunması istiqamətində mühüm nəticədir.

Bir zamanlar əhalinin kommunal problemlərinin həll edilməsi müşkül məsələ kimi görünürdüsə, aparılan siyasət nəticəsində muxtar respublikanın hər bir bölgəsi fasiləsiz elektrik enerjisi, mavi yanacaq və digər kommunal xidmətlərlə təmin olunub, yenidən qurulan müasir infrastruktur, abad yollar hər bir sakinin ürəyində fərəh hissi oyadır.

**Qəzənfər BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# Bulaq suyu, dağ havası

***Şahbuz rayonu təbiət mənzərələri, min bir dərdə dərman olan bulaqları, fauna və florası ilə hər zaman muxtar respublikamızın seçilən bölgələrindən biri olub. Keçili kəndində də bütün bunları görmək mümkündür. Hər dağında-dərəsində ayrı bir gözəllik olan bu kəndə üz tutmağımızda məqsədimiz adı dillərdə deyilən Çınqıllı bulağının gözündən axıb gələn, dərdlərə dərman olan təbii bulaq suyu haqqında yazı hazırlamaq idi. Lakin bu kəndin insanları ilə söhbət etdikdə onun təkcə Çınqıllısı ilə kifayətlənmək mümkünsüz oldu.***




Keçili kəndi rayon mərkəzindən 20 kilometr şimalda, Zəngəzur silsiləsinin yamacında yerləşir. Muxtar respublikamızda daimi xarakter alan quruculuq tədbirləri nəticəsində bir zamanlar bərbad halda olan kənd yolu yerini qara örtüklü, hamar yollara verib. Yolboyu qayalıqların əhatəsində qərar tutan kəndlərimizə baxdıqca yaradılan şərait insanda qürur hissi doğurur.





Kənd sakini yaşı 90-ı haqlamış Beytulla baba deyir ki, indiki gənclərin kitablardan oxuyub öyrəndiyi çətinlikləri biz yaşayaraq bu günlərə gəlmişik. Elektrik enerjisinin saatla verildiyi, məcburiyyət qarşısında qalaraq meyvə ağaclarını kəsərək evlərimizi isitdiyimiz günləri tez-tez xatırlayıram. Heyrət edirəm ki, o günləri necə yaşaya bilmişik? Bu gün, şükürlər olsun ki, hər bir mənzil fasiləsiz elektriklə, mavi yanacaqla təmin olunub. Yeni məktəb binası tikilib, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəmizə verilib. Yəni kənddə yaxşı yaşamaq üçün hər bir şərait yaradılıb. Məhz dövlətimizin bu qayğısının nəticəsidir ki, kəndli də torpaqdan ikiəlli yapışır. Müxtəlif təsərrüfat sahələrinin inkişaf etdirildiyi Keçilidə yetişdirilən məhsullar dad-tamı ilə tanınır. Həmin məhsullar daxili bazarda özünə xeyli alıcı qüvvəsi toplayıb.

Bu da Çınqıllı bulağı. Kəndin mərkəzindən, təxminən, 2 kilometr aralıda yerləşən bulağın suyunun bir hissəsi kənd mərkəzinə çəkilərək istifadəyə verilib. Qalan hissəsi isə 2007-ci ildə yaradılan “Çınqıllı” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal olunaraq respublikanın müxtəlif bölgələrinə göndərilir. Sıçanlı dağının ətəyindən çıxaraq Keçili kəndini nəinki Azərbaycanda, keçmiş Sovetlər Birliyində, İran və Türkiyədə də məşhur edən Çınqıllı suyu yüngüllüyü, içildikdə həzm prosesini asanlaşdıran, susuzluğu tez aradan qaldıran, böyrək daşlarını əritməkdə effektiv olan xüsusiyyətləri, insan orqanizminə çox faydalı elementləri ilə fərqlənir.

Cəmiyyətin icraçı direktoru Təyyar Əsgərovdan aldığımız məlumata görə, gündəlik istehsal gücü 15000 litr olan müəssisədə 11 nəfər daimi işlə təmin olunub. Müəssisədə 0,5 litrlik, həmçinin 1, 5, 10, 15, 20 litrlik taralardan istifadə edilir. Yaxın günlərdə həm də şüşə və plastik butulkalarda 330 qramlıq suyun istehsalı nəzərdə tutulub.

Öyrəndik ki, cari ilin ötən dövrü ərzində 75 min litr və ya 30 min manatlıq su istehsal olunub.

Bulağın suyu muxtar respublikamızla yanaşı, Azərbaycanın müxtəlif bölgələrinə də çatdırılır. Belə ki, cəmiyyətin Bakı şəhərində yerləşən ofisindən Sumqayıt şəhərinə və Kürqırağı rayonlarına suyun çatdırılması təmin olunur.

2020-ci ildə isə müəssisəyə, təxminən, iki yüz min manat dəyərində yeni avadanlıqlar alınıb ki, bu avadanlıqlar gələcəkdə suyun qazlı növünü istehsal etməklə yanaşı, digər ölkələrə ixrac etmək gücünün artırılmasına da böyük töhfə verəcəkdir.

Kəndə gəlmişkən suyun mənbəyini görməyə də getdik. Maşınımız yuxarı qalxdıqca ərazinin dağlıq olmasına baxmayaraq, burada əhali tərəfindən salınan bağlar insanı valeh edir. Budur, bulağa çatırıq. Bütün sanitar-gigiyenik qaydaların qorunduğu bulağın ətrafında əhalinin istirahəti üçün yer ayrılıb. Bulaqdan bir az yuxarıda təbiət gözəli olan şəlalə isə gur suyu ilə böyük bir hovuz yaradıb. Nəinki Keçili camaatı, muxtar respublikamızın hər bir yerindən bu bulağı görməyə gələnlər istər bulaq, istərsə də şəlalə ətrafında yaxşı istirahət edirlər.

**✍ Telli MƏMMƏDOVA**

Jurnalist araşdırması

# Distant təhsil: bu günün və gələcəyin təhsil trendi

***Müasir texnologiyalar həyatımızı dəyişməklə bərabər, həm də qloballaşan dünyanın tələblərinə uyğun olaraq bütün sahələrə, eyni zamanda  təhsil sisteminə də yeni yanaşma tələb edir. İnkişafın mənbəyində təhsilli cəmiyyətin dayandığını və gələcəyin bilavasitə bu sahədə qazanılan nailiyyətlərlə bağlılığını düşünsək, XXI əsrin Birləşmiş Millətlər Təşkilatı tərəfindən “Təhsil əsri” elan edilməsinin heç də təsadüf olmadığını aydın görərik. Burada ümummilli liderimiz Heydər Əliyevin “Təhsil millətin gələcəyidir!” deyimi də bir daha yerinə düşür. Bu gün bütün dünyanı sarsan pandemiya inkişaf göstəricisindən  asılı olmayaraq bütün ölkələrin sosial, iqtisadi, mədəni həyatına təsir etməklə bərabər, təhsilin məzmunu və formasına da yenidən nəzər salmaq zərurətini meydana çıxardı, distant təhsilin tətbiqi zərurətə çevrildi. Postpandemiya dövründə təhsil sistemində nələr baş verəcək, distant təhsil sitemini hələ də tətbiq etməyən və ya bu proseslərdən geridə qalan ölkələr bundan sonra hansı problemlərlə üzləşəcək, təhsilin bu formasının tətbiqi Azərbaycan təhsil məkanında necə qarşılanacaq? Hazırda bu kimi suallar hamını maraqlandırır. Bu məqalədə distant təhsillə  bağlı  bir sıra məsələlərə qismən də olsa aydınlıq gətirməyə çalışacağıq.***

### *Distant təhsil nədir və necə yaranıb?*

Distant təhsil – öyrədən və öyrənən arasında əlaqənin telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks-əlaqə əsasında uzaq məsafədən həyata keçirildiyi təhsil sistemidir. Müəllim və şagirdin, tələbənin eyni məkanda olma məcburiliyini ortadan qaldıran bu sistem interaktiv, dinamik və olduqca canlı bir ölçüyə sahibdir. İnternetin kəşfi və inkişafı ilə yeni eraya qədəm qoyan təhsil sisteminin bir forması kimi distant təhsil ilk dəfə 1800-cü illərdə Amerikada poçt vasitəsilə  tətbiq edilib. XX əsrin sonlarında onlayn distant təhsil sistemi tam olaraq yaradılıb və dünyanın bir çox ölkəsi bu təcrübədən istifadə edərək inkişaf əldə edib. Başlanğıcda təhsil proqramını təkmilləşdirməyin müasir metodu kimi meydana çıxan distant təhsil proqramı, xüsusilə pandemiyanın yayıldığı indiki zamanda təhsildə fasiləsizliyi təmin etməyin yeganə çıxış yolu kimi bütün dünyanın diqqət mərkəzindədir. Müasir informasiya texnologiyalarının köməyi ilə təmin edilən distant təhsil bir sıra inkişaf etmiş ölkələrdə geniş tətbiq edilir. Bu isə heç də səbəbsiz deyil.



### *Distant təhsilin üstünlükləri*

Öyrətmək, öyrənmək və başqalarını da cəlb etmək – bunlar distant təhsilin vacib elementlərindəndir. Distant təhsil istənilən şəxsə ölkəni tərk etmədən xarici universitetlərdə təhsil almaq, paralel olaraq həm də işləmək, işdən sonra asudə vaxtlarda evdə



oxumaq, nəqliyyat xərclərinə nəzarət etmək, təhsil haqqını kreditlə ödəmək, sağlamlıq imkanları məhdud olan uşaq, yeniyetmə, gənclərə, bir sözlə, daha çox şəxsə vaxta qənaətlə çox az xərclə real təhsil imkanları təqdim edir. Bu təhsil formasında informasiyalar öyrənənlərə elektron materiallar, elektron dərslik, audiovideo disklər və digər formalarda təqdim olunur, bu isə  təhsili hamı üçün əlçatan edir. Hər bir sahədə olduğu kimi, distant təhsil sahəsində də müəyyən çatışmazlıqlar var. Buraya canlı ünsiyyətlə müqayisədə operativlik və interaktivliyin zəif təşkili, öyrədən və öyrənənin psixoloji, texnoloji cəhətdən hazırlıqsız olması, distant təhsilin yekunlarına görə verilən diplom və ya sertifikatın hələlik keyfiyyətli təhsilin göstəricisi kimi qəbul edilməməsi kimi amilləri göstərmək olar. Lakin zamanla, sözsüz ki, bu məsələlər də  öz həllini tapacaq. Bu gün əsas məqsədimiz inkişaf etməkdə olan distant təhsildən kənarda qalmamaq, ondan  düzgün və səmərəli istifadə etməkdir.

### *Azərbaycanda distant təhsilin tətbiqi imkanları*

Azərbaycanda 2009-cu ildə qəbul olunmuş “Təhsil haqqında” Qanuna görə, ölkəmizdə təhsilalma formalarından biri də distant (məsafədən) təhsildir. Burada distant (məsafədən) təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması kimi göstərilir. Bu təhsil sistemi ölkəmizdə, ilk növbədə, ənənəvi əyani təhsil almaqda çətinlik çəkən insanların, xüsusən də sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunmasında çox münasib və əlçatan bir təhsil forması kimi rəğbət qazandı. Məktəb və universitetlərin elektronlaşdırılması, müasir informasiya-kommunikasiya vasitələri, interaktiv vəsaitlər və fasiləsiz internetlə təmin olunması distant təhsilin tətbiqinə daha geniş imkanlar açır. Pandemiyanın yayılması isə distant təhsilin tətbiqinin vacibliyini ön plana çıxardı və YUNESKO (BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı)  təhsildə yaranan fasilələri məhdudlaşdırmaq üçün distant təhsil proqramlarından istifadəni tövsiyə etdi. İnkişaf etmiş ölkələrin əksəriyyəti təhsil forması kimi dərhal distant təhsilə keçdi. Buna misal kimi, qonşu ölkələrdən Rusiyanı, Türkiyəni göstərmək olar. Ölkə Prezidenti cənab İlham Əliyevin pandemiyanın daha geniş yayılmasının qarşısının alınması üçün verdiyi tapşırıqlar nəticəsində təhsil sahəsində də müəyyən tədbirlər görüldü. Bir sıra telekanallarımızda nümayiş olunan “Dərs vaxtı”, “Virtual məktəb” *(virtual.edu.az)*, bütün dərsliklərin onlayn mövcud olduğu e-derslik layihələri, şagirdlərin evdən imtahanlara hazırlaşması üçün *www.otk.az* internet səhifəsində pulsuz sınaq imtahanlarının təşkili həmin tədbirlər sırasındadır. Həmçinin “Zoom” proqramı və digər onlayn proqramlar vasitəsilə yüzlərlə fədakar müəllimimiz distant dərsləri uğurla həyata keçirdilər. Yeni tədris ili ilə bağlı Təhsil Nazirliyinin keçirdiyi mətbuat konfransında qeyd edildiyi kimi, cari ilin sentyabr-noyabr aylarında əyani təhsillə yanaşı, ölkənin bir sıra təhsil müəssisələrində – yuxarı siniflərdə, peşə təhsili, ali və orta ixtisas təhsili müəssisələrində ilkin mərhələdə tədris distant formada təşkil edilir.

Hazırda distant ali təhsilin postpandemiya mərhələsinin müzakirəsi gələcək perspektiv üçün olduqca vacibdir. “Microsoft” şirkətinin yaradıcısı Bill Qeytsin “Vaxt gələcək universitetlər internetlə rəqabət apara bilməyəcəklər” deyimi real həyatda öz əksini tapmaqdadır. Bu gün  bir sıra ölkələrdə heç bir tədris binası olmayan virtual universitetlər var ki, yüz minlərlə tələbəyə dərs verir. Məsələn, Böyük Britaniyada “Açıq Universitet” (Open University), Avropada tanınmış distant təhsil mərkəzlərindən sayılan İspaniya Milli Distant Təhsil Universiteti, ABŞ-ın Pensilvaniya Universiteti, Türkiyənin Anadolu Universiteti məsafəli təhsil proqramını həyata keçirir. Hazırda ölkəmizdə də bir sıra ali təhsil müəssisələri – ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti təlim-tədris prosesinin məsafədən təşkilini təmin edə biliblər. Lakin bütün ali təhsil müəssisələrimizin distant təhsil mexanizminə keçidə tam hazır olması müəyyən zaman tələb edir. Burada  distant təhsil sistemi ilə bağlı məlumat zənginliyi, İKT baxımından tam təchizat, tədris studiyalarının və inzibati heyətin sayı, təhsildə rəqəmsal texnologiyaların tətbiqinə yeni yanaşmanın formalaşdırılması, elektron dərsliklərlə təminat, hər bir təhsilalanın evində müvafiq şəraitin olması, distant təhsilə cavab verən müəllimlərin hazırlanması kimi məsələlər diqqətdə saxlanılmalıdır. Aktuallıq kəsb edən digər bir məsələ isə ölkədə distant təhsilə görə verilən diplomun tanınmamasıdır. Bununla bağlı, araşdırma apararkən ölkənin xəbər saytlarının birində “Azərbaycan distant təhsil diplomlarını tanıyacaq” başlıqlı məqalə diqqətimizi çəkdi. Məqalədə yeni qəbul olunacaq “Ali təhsil haqqında” Qanunda distant təhsilin diplomunun tanınması məsələsinin də öz əksini tapacağı qeyd olunub. Bu isə onu göstərir ki, gələcəkdə ölkəmizdə də distant təhsilin tətbiqi qaçılmaz olacaq. Çünki müasir dövrdə öyrənmək, bilgi sahibi olmaq artıq sərhəd tanımır.

### *Naxçıvanda distant təhsil yeni bir istiqamət kimi diqqət mərkəzində*

Bu gün müasir rabitə sistemi yaradılan muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində də böyük layihələr həyata keçirilir. Reallaşdırılan layihələr təhsil sahəsini də əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikada elektron təhsilin tətbiqini genişləndirmək, təhsil müəssisələrində virtual tədris mühiti formalaşdırmaq, tədrisin səmərəliliyini daha da artırmaq məqsədilə bir sıra işlər həyata keçirilib. Görülən tədbirlərin  nəticəsidir ki, bu gün muxtar respublikamızın təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi məqsədilə distant təhsil sistemi yaradılıb, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilib, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də Distant Tədris Mərkəzi, elektron kitabxana və “258” telefon xidməti üzərindən fəaliyyət göstərən audiokitabxana yaradılıb. Hazırda muxtar respublikanın 236 təhsil müəssisəsi və 17 muzeyi distant təhsil sisteminə qoşulub. Bütün bunlar şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasında, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyasında mühüm rol oynayır. Ali Məclis Sədrinin təşəbbüsü ilə 17 yanvar 2018-ci il tarixdə ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi isə bu sahədə atılan mühüm addımlardandır. Ali Məclisin Sədri bunu muxtar respublikanın həyatında əlamətdar hadisə kimi qiymətləndirərək demişdir: ***“Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi muxtar respublikanın həyatında əlamətdar hadisədir. Distant Təhsil Mərkəzi Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişaf yolunun nəticəsidir. 13 il bundan əvvəl keçirilən “Elektron Naxçıvan – 1” konfransında Naxçıvan Dövlət Universitetinin kompüterləşməsi proqramının əsası qoyulub və bu gün Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi ilə başa çatıb.  Bu gündən etibarən isə universitetdə distant təhsilin tətbiqinə başlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, distant təhsil Naxçıvan Dövlət Universiteti ilə yanaşı, muxtar respublikanın digər ali və orta ixtisas məktəblərində də tətbiq edilməlidir”.*** Hazırda universitetdə bütün ixtisaslar üzrə distant təhsil həyata keçirilir. Məsafədən təhsilin onlayn forması ilə bərabər, offlayn forması olan və KOİCA şirkəti tərəfindən “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsi çərçivəsində yaradılan öyrənmənin idarəolunması sistemindən (Learning Management System) həm tələbələr, həm də müəllimlər istifadə edəcəklər. Tələbələr mühazirələr, videodərslər, kurs işi və sərbəst iş mövzularını buradan asanlıqla əldə edə  biləcəklər. Pandemiyanın davam etdiyi bir vaxtda muxtar respublikamızda bütün sahələrdə müxtəlif proseslərin, o cümlədən təhsilin qiymətləndirilməsinin elektron qaydada aparılması hər cəhətdən təqdirəlayiq haldır.

### *Distant təhsillə bağlı gələcək planlar*

Bu gün tez-tez eşitdiyimiz “Dünya bundan sonra əvvəlki dünya olmayacaq” ifadəsi özünü doğrultmağa başlayır. Təhsil, səhiyyə, iqtisadiyyat, siyasət, din və sosiologiya münasibətlərinin fərqli olacağı yeni bir dünya düzəninə doğru addımlayırıq. Əslində, buna səbəb və ya təkanverici qüvvə bütün dünyanı cənginə alan pandemiya oldu desək, yanılmarıq. Tarixçi Yuval Noah Harari “Koronavirusdan sonra dünya” adlı məqaləsində dövlətlərin bu günlərdə verəcəkləri qərarların önümüzdəki illərdə bütün dünyada səhiyyə, iqtisadiyyat, siyasət və mədəniyyəti yenidən formalaşdıracağını, pandemiyadan sonra fərqli bir dünyada yaşayacağımızı vurğulayır, eyni zamanda fövqəladə halların tarixi prosesləri sürətləndirəcəyini,  bu zaman görülən qısamüddətli tədbirlərin bir müddət sonra normal həyatın bir hissəsinə çevriləcəyini və müntəzəm şəkil alacağını diqqətə çatdırır. XXI əsrin ən vacib özəlliklərindən biri də təhsilin qloballaşmasıdır. Ekspertlərin proqnozlarına əsasən 2025-ci ildə qlobal on-



layn təhsil bazarının həcminin 320 milyard dollar olacağı gözlənilir. Ekspertlər hesab edirlər ki, təhsilin kütləvi formada rəqəmsallaşması dövrü başlayıb. Bu, yeni iqtisadi sahələrin əsasını təşkil etməklə əmək bazarını və təhsili köklü surətdə dəyişir. Distant fəaliyyət hazırda bütün dünyada əmək bazarının imkanlarını genişləndirir, “Həyatboyu təhsil” (Lifelongeducation) anlayışı artıq təhsil konsepsiyasına çevrilir. Bir çox şirkətlər vakant yerə əməkdaş işə qəbul edərkən əlindəki diplomdan çox namizədin real bilik, bacarıq və səriştəsini önəmsəyir ki, buna da distant təhsil formatında nail olmaq daha asan və ucuz başa gəlir. Dünyada “Alisa effekti” (güzgülər aləmində Alisanın prinsipinə əsasən) “Olduğun yerdə qalmaq üçün qaçmalısan, irəli getmək üçün isə iki dəfə daha sürətli qaçmalısan” prinsipi aktuallıq kəsb edir.

*Bəli, indi bizim yaşadığımız XXI əsr – yüksək texnologiyalar əsri bütün dünyada vəziyyəti dəyişir. Odur ki, baş verən qlobal yeniliklərə qoşulmaq, yenilik etmək bizim üçün də zamanın tələbinə çevrilib. Bu, bütün sahələr, eləcə də təhsil üçün keçərlidir. Yalnız bilik, savad və yenilik bizi irəli aparacaq. Elə haqqında danışdığımız distant təhsil sistemi də bu üç vacib elementi özündə ehtiva edir…*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Rusiyalı alim vebinar təlim keçib



***Naxçıvan Dövlət Universitetində beynəlxalq nüfuzlu elmi bazalara daxil olan jurnalların publikasiyaya uyğun seçilməsi üsullarına dair vebinar təlim keçirilib.***

Universitetin rektoru, dosent  Elbrus İsayev qeyd edib ki, elmi jurnalların “Web Of Sciense” və ya “Scopus” beynəlxalq elmmetrik məlumat bazalarına daxil edilməsində bir zərurət vardır. Rektor universitetin “Elmi əsərlər” jurnalının “Web Of Sciense” də indeksləşməsi bazasına daxil olmasını gələcək fəaliyyət istiqaməti kimi önə çəkib.

Clarivate  Analytics Təşkilatının Azərbaycan, Gürcüstan və Ukrayna üzrə nümayəndəsi Sevinc Cəfərova təlimin məqsədindən danışıb, gələcək əməkdaşlığın perspektivlərinə toxunub.

Beynəlxalq münasibətlər üzrə Moskva Dövlət İnstitutunun dosenti, linqvistika üzrə fəlsəfə doktoru Valeria Kurmakayeva bildirib ki,  “Web Of Sciense” (WoS) və “Scopus” hazırda dünyada ən nüfuzlu baza olaraq qəbul edilir. “Web of Science” bazasına 12 mindən, “Scopus” bazasına isə 25 mindən artıq jurnal daxildir. Hər il bu bazalar yenilənir, yeni jurnallar daxil edilir və ya bazadan çıxarılır. Vurğulanıb ki, hazırda 800 milyondan çox istinadı indeksləşdirən “Web Of Sciense” elmmetrik platformasının əsasını təşkil edən üç əsas və yeni – “Science Citation Index Expanded” (SCIE) – təbiət və dəqiq elmləri, “Social Sciences Citation Index” (SSCI) – ictimai elmləri, “Arts & Humanities Citation Index” (AHCI) – humanitar elmləri özündə cəmləşdirən bazalar mövcuddur. Beynəlxalq elmi jurnallarda məqalə dərci və bununla bağlı olan problemlər, tədqiqatçının elmi jurnal seçərkən diqqət yetirəcəyi əsas məqamlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Görüşün sonunda suallar cavablandırılıb.

**Səadət ƏLİYEVA**

# Vətən sənə oğul dedi



*Zaman-zaman öz işğalçılıq planlarından əl çəkməyən erməni daşnakları 1990-cı ildə də Azərbaycanın bir çox bölgələrindən, o cümlədən Naxçıvan istiqamətindən öz mənfur arzularına çatmaq üçün cəhdlərə başlamışdılar. Elə bir vaxt idi ki, əli silah tutan hər kəs ön cəbhəyə yollanırdı. İdris Məmmədov da bir qarış torpağımız düşmən işğalı altına keçməsin deyə, könüllü şəkildə ön cəbhəyə üz tutanlardan idi…*

Bu gün şəhidin hələ sağlığında qələmə aldığı Vətən yanğılı şeirlərini oxuduqca, onun haqqında deyilənləri eşitdikcə, həqiqətən də, ürəyi Vətən eşqi ilə döyünən bir Vətən oğlunun göstərdiyi qəhrəmanlıq qarşısında baş əyirəm. Təəssüf ki, övlad itkisinə uzun müddət tab gətirə bilməyən İmgülsüm nənə və Ələsgər babanın qürurlu və nisgilli söhbətlərini dinləmək mənə nəsib olmayıb.



Yaxın günlərdə "Şərq qapısı" qəzetinin arxivini vərəqləyərkən 1992-ci il tarixli nömrəsində dərc olunan bir müsahibə diqqətimi çəkir. Şəhidin atası Ələsgər baba həmin illərdə qəzetimizə verdiyi müsahibədə deyir: "Ata kimi o günləri xatırlamaq mənim üçün çox ağırdır. Hərdən fikirləşirəm ki, yazıya pozu yoxdur. Doğrudan, çətin, ağır günlər idi. Ortada namus, qeyrət mə-




sələsi dururdu. Belə bir vaxtda mən övladımı gözləyə idim, sən uşağını qoruya idin, bəs sərhədlərimizi o cür azğın düşmənlərdən kim qorumalı idi? Əgər o vaxtlar, doğrudan da, əli silah tutan igid oğullarımız olmasaydı, indi, bəlkə də, vəziyyət tamam dəyişərdi. Belə halda qurban da verilməli, qan da tökülməli idi. Bircə təskinliyim ondadır ki, İdris dünyasını dəyişəndən sonra hamının əzizinə, övladına çevrildi, bir də ki bu yolda canını fəda edənlər, şəhid olanlar elə hamımızın əzizi, övladı deyilmi?"

Atalarını itirəndə Günayın 4, Elnurun isə 3 yaşı olub. Oğlu Elnur Məmmədovun dediklərindən:

– Atamı itirəndə mən çox balaca idim. Nə baş verdiyini dərk etmirdim. Ən çox da küçədə ataları ilə zaman keçirən uşaqları görəndə içinicin yanırdım. İllər necə keçdi bilmədim, yaşımdan da tez böyüdüm. Həmin illərdə də, indi də təsəlli tapdığım yer Şəhidlər xiyabanı oldu. Hər zaman məni düşündürən başqa bir sual da olub. Görəsən, o sağ qalsa idi, necə olardı həyatım? Təsəllim bircə şəhidlərin ölməzliyidir. Atam yaşasaydı, bu gün 62 yaşını qeyd edəcəkdik. Ailəmizdə onun adını daşıyan övladım böyüyür. Bir valideyn kimi, onu adına layiq böyüdüb, əsl vətənpərvər olmağı üçün əlimdən gələni edirəm. Bir neçə il bundan öncə Sədərək rayonunda yaşayan, həmin günlərin canlı şahidi olan Tofiq Nəsirovla həmsöhbət olmuşdum. O, mənə döyüş zamanı Naxçıvanın bütün bölgələrindən, həmçinin şəhərdən gələn könüllü dəstələrin necə qəhrəmanlıqla vuruşduğunu danışaraq bildirmişdi ki, atamı da elə şəhid olduğu bölgədən o çıxarıb.

Bu vaxt ermənilər bir neçə istiqamətdən kəndə hücum etmişdilər. Atılan bombalardan birinin Tofiq Nəsirovun həyatına düşməsi nəticəsində iki övladı şəhid olmuşdu.

Elnur deyir ki, İmgülsüm nənəm həmişə o ağrılı-acılı günlərdə bütün el-obanın yığışıb şəhid ailələrinə dayaq olmasından, onları öz doğmaları kimi ağır-əziz tutmalarından danışardı.

İdris Məmmədovun vaxtilə yaşadığı məhəllə onun adını daşıyır, barelyefi vurulub həmin küçəyə. Açılış mərasimində ümummilli liderimiz Heydər Əliyev iştirak edib.

Bu gün barelyefdən baxan məğrur baxışlar, sanki yenə də əvvəllərdə olduğu kimi, yaşıdlarını ürəyinin istisinə çağırır. Elə bil indicə onlara olub-keçənlərdən söhbət açacaq. Kim bilir, bəlkə də, öz ciyərparalarını, həm də uğrunda qurban getdiyi torpağı qorumağı onlara vəsiyyət edəcək.

Uğrunda qurban getdiyi Vətənin bu günündən söhbət açmaq istəyirəm sənə, şəhidim. Artıq Azərbaycan müstəqillik qazanaraq günü-gündən inkişaf edib, çiçəklənən bir respublikaya çevrilib. Vətən torpağı düşmən tapdağına keçməsin deyə, sən sinəni sipər etdiyin zamanlarda pərən-pərən, əli silahsız olan ordumuz isə bu gün dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Həm silah arsenalı, həm də maddi-texniki bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daim yüksəlir. Artıq bütün döyüş tapşırıqlarının öhdəsindən layiqincə gələn ordumuz işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Bundan başqa, sənin davamçıların olan minlərlə gənc könüllü olub, ordu sıralarında döyüşmək, torpaqlarımızı işğaldan azad etmək niyyətindədirlər.

Bu gün istər dövlətimizin ordu quruculuğu istiqamətində apardığı uğurlu siyasət, dövlət-ordu-xalq birliyi, istərsə də qardaş Türkiyə ordusu ilə birgə keçirilən uğurlu hərbi təlimlər onu göstərir ki, torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil.

Bu gün paytaxt şəhərimizin Şəhidlər xiyabanında uyuyanlar müqəddəs bir amal uğrunda canlarını qurban vermişlər. Torpağın bölünməzliyi həm də qeyrət, namus rəmzi kimi onlar üçün müqəddəs olmuşdur. Bu bölünməzlik uğrunda qurban gedənlərin əksəriyyəti ev, ocaq, ailə başçısıdır. Qardaş, oğul, atadır. Nəhayət, öz haqqını müdafiə edən böyük bir xalqın övladıdır. Şəhidlər ölməzdirlər. Onların ruhu həmişə uzaq səmalardan belə, doğma torpaqlarımızın üzərində dolaşır, onun keşiyini çəkir. O cümlədən doğma Naxçıvanımızın ilk şəhidlərindən olan İdris Məmmədov da bu gün nəinki öz ailəsi, həm də bütün naxçıvanlılar üçün əziz və hörmətlə yad edilən bir qəhrəmandır.

**✍ Telli MƏMMƏDOVA**

## Maarifləndirici tədbir olub

*Dünən Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyinin əməkdaşlarının iştirakı ilə müvafiq proqrama cəlb edilən yerli sakinlərlə görüş keçirilib.*

Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi və istifadə olunmasının təşkili, onlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlərlə bağlı müvafiq məlumatlar verilib, onları maraqlandıran suallar cavablandırılıb.

## Sosial qayğıya ehtiyacı olan ailələrlə görüşlər davam etdirilir



Muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən xidmətlərin həcmi və keyfiyyəti yüksəlir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində muxtar respublikanın şəhər və rayonlarında aztəminatlı ailələrlə görüşlər keçirilir, yardımlar göstərilir. Növbəti belə tədbir Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri və Şərur rayonunda baş tutub.

Naxçıvan şəhərindən İsmayılovlar, Şərur rayon Dərvişlər kəndindən isə Abdullayevlər ailəsi ilə keçirilən görüşlərdə nazirlik və komitə əməkdaşları sakinlərin qayğıları ilə maraqlanıb, onlara sovqatlar təqdim ediblər.

Sosial qayğıya ehtiyacı olan şəxslər göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Yolun uğurlu olsun

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Ali Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Yadigar məktəbli şeir həvəskarı Sabrina Gültəkinin "Mənim anam bir mələkdir" adlı ilk şeirlər kitabını mənə hədiyyə verəndə bir neçə il əvvəl muxtar respublika rəhbərinin uşaq ədəbiyyatının müasir vəziyyəti, onun inkişaf etdirilməsi ilə bağlı verdiyi tövsiyə və tapşırıqları xatırladım. Və ötən dövrdə bu qədim diyarda yaşayan, özlərini ölkə səviyyəsində təsdiq edən qələm sahiblərinin bu istiqamətdə ədəbiyyatımızın sərvətinə çevrilən şeir və hekayələri ilə yanaşı, həm də onların bir çoxunun gənc istedadlara kömək göstərməli gözlərim önünə gəldi. Elə bu kitab da Asim Yadigarın xeyir-duası və "Ön söz"ü ilə işıq üzü görüb. Asim müəllim çox düzgün olaraq "Ön söz"də yazır ki, bu gün 13 yaşlı məktəblinin şeirlərində qayda-qanunların tam yerində olduğunu, bədii ifadə vasitələrinin kamilliyini tələb etmək düzgün olmaz. Ancaq bu kitaba toplanan şeirlər onu göstərir ki, Sabrina öz üzərində işləyərsə, klassiklərimizi, müasirlərimizi mütaliə edərsə, ədəbiyyat nəzəriyyəsini dərindən öyrənərsə, o, gözəl şair ola bilər. Bunun üçün imkanlar da var, vaxt da.

Təqdirolunasıdır ki, Sabrinanın Vətən mövzusunda qələmə aldığı nümunələr çoxdur; bu şeirlərdə onun vətənpərvərlik duyğuları özünü göstərir:

*Naxçıvan alınmaz qalamdır mənim,*
*Ona daş atanlar lap çox olubdur.*
*Yadlar göz dikiblər cah-cəlalına,*
*O, düşmən gözünə bir ox olubdur.*




Sabrinanın ilk qələm nümunələrində tariximiz, faciələrimiz, şəhidlərimiz, təbiətimizlə bağlı düşüncələri maraqlıdır. Fikrimizcə, bu bir məktəblinin doğma yurduna, öz xalqına sevgi və məhəbbətindən irəli gəlir. "Əsgərlərə", "Vətən oğulları", "Şəhidlər", "Ey düşmən", "Xocalı", "Odlar yurdum" və başqa şeirlərində məsum uşaq qəlbinin pıçıltılarını duymamaq mümkün deyil. Qələmə aldığı bu mövzularda Sabrinanın yaşından bir qədər irəli getməsi nəzərdən qaçmır, müşahidə duyumunun genişliyi onun gələcəyinə inam yaradır.

Kitabı vərəqləyərkən Sabrinanın mövzu dairəsi də diqqətimi çəkdi. Xüsusilə də anasına həsr etdiyi şeirlərdə məktəbli qız bəzən öz-özünü təkrar etsə də, fikirləri düşündürücü, ümumilikdə, analara arzuladıqları təbiidir. "Mənim anam bir mələkdir", "Qayğıkeş analar", "Ana", "Anam" və digər şeirlər özünəməxsus ifadə tərzi ilə qələmə alınıb.

Biz də müəllifi ilk qələm təcrübələrindən ibarət şeir kitabının çapdan çıxması münasibətilə ürəkdən təbrik edirik. Arzumuz budur ki, onun şeir yazmaq həvəsi ötəri maraq olmasın. Əminəm ki, balaca şairimiz dərslərini yaxşı oxumaqla, ovsununa düşdüyü şeir dünyasında öz sözünü deyə biləcək. Kitabın redaktoru Asim Yadigarın da dediyi kimi, Sabrinanın imkanları da buna çatır, qarşıda vaxt da var. Belə yeniyetmə və gənclərə muxtar respublikamızda göstərilən qayğı isə onlara öz arzularına çatmaqda başlıca amildir.

Yolunuz uğurlu olsun!

**✍ Muxtar MƏMMƏDOV**

## Növbəti monitorinq keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşlarından ibarət işçi qrupu növbəti monitorinqi Naxçıvan şəhəri üzrə fəaliyyət göstərən bələdiyyələrin mülkiyyətində olan torpaq sahələrində aparmışlar. Monitorinq zamanı işçi qrupun üzvləri bələdiyyə sədrləri və üzvləri ilə görüşərək icarəyə veriləcək bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə baxış keçirmişlər.

Bildirilmişdir ki, bələdiyyə sədrləri müqavilə üzrə torpaqlardan təyinatı üzrə istifadə edilməsinə diqqət yetirməli, torpaqların mühafizəsi ilə bağlı tədbirlər görməli, əhalinin ehtiyacı üzrə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması istiqamətində maarifləndirmə işləri aparmalıdırlar.

Sonda müzakirələr aparılmış, iştirakçıların sualları cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Rentgen-flüoroqrafik müayinələr aparılıb

***Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri əhali arasında ağciyər vərəminin profilaktikası və ilkin vərəmin vaxtında aşkar edilməsi məqsədilə rentgen-flüoroqrafik müayinələrə start verib.***



İlk müayinələr Kəngərli Rayon Mərkəzi Xəstəxanasında aparılıb. Dispanserin həkimləri Sevda Rüstəmova və tibb bacısı Hüsniyyə İsmayılova 151 nəfəri flüoroqrafiya müayinəsindən keçirib. Müayinələr xəstəxananın tibb işçiləri və uşaq bağçalarının müəllimlərini əhatə edib. Xəstə aşkar olunmayıb. Rayonun Qıvraq qəsəbəsi və Şahtaxtı kəndində isə 152 müəllim flüoroqrafiya müayinəsinə cəlb olunub. Bir nəfər xəstəliyə şübhəli bilindiyindən dispanserdə təkrar müayinəsi məsləhət görülüb. Müayinələr zamanı maarifləndirici söhbətlər də aparılıb.

Bütövlükdə, sentyabr ayının ötən günlərində Ağciyər Xəstəlikləri Dispanserinin rentgen-flüoroqrafiyasında 1600 nəfər yoxlanılıb. Bir nəfər dispanser qeydiyyatına və digər bir nəfər isə DOTS proqramı üzrə müalicəyə götürülüb. Hazırda bu proqram üzrə 11 xəstə müalicə alır.

Qeyd edək ki, muxtar respublikada yoluxucu xəstəliklərlə mübarizə işi səhiyyənin prioritet sahələrindən biridir. Əhalinin müxtəlif qrupları arasında xəstələnmə və ölüm səviyyəsinin azaldılmasına yönəldilmiş immunprofilaktikaya dair çox vacib proqramların həyata keçirilməsi də bunu təsdiq edir. Nəticədə, bir sıra xəstəliklərin yayılma səviyyəsi xeyli azalıb, bir neçə infeksion patologiya isə tam ləğv olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şahbuz rayonu, Kolanı kəndində yaşamış Bayramova Güllər Saleh qızının adına verilmiş JN-200$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair" şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Məmmədov Kəmaləddin Məhəmməd oğlunun adına verilmiş JN-446$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 715